| Xəstəlik sinifi (XBT-10) | K - Həzm sisteminin xəstəlikləri |
|---|---|

| İlkin versiyanın tərtibatçı(İSİM) | Məmmədova L. |
|---|---|

| XBT-10 rubrikası | Xəstəliklər |
|---|---|
| **K29** | Qastrit və duodenit |
| **K29.3** | Xroniki səthi qastrit |
| **K29.4** | Xroniki atrofik qastrit |
| **K29.5** | Dəqiqləşdirilməmiş xroniki qastrit |
| **K29.6** | Digər qastritlər |
| **K29.7** | Dəqiqləşdirilməmiş qastrit |
| **K29.8** | Duodenit |
| **K29.9** | Dəqiqləşdirilməmiş qastroduodenit |

## Müalicə

Xroniki qastritli xəstənin müalicəsinə daxildir:

qidalanma və həyat tərzi tədbirləri: sağlam qidalanma prinsiplərinə uyğunluq, siqaret və alkoqoldan imtina etmək, qastrotoksik dərmanların (məsələn QSİƏP) və digər kimyəvi qıcıqlandırıcıların istifadəsini məhdudlaşdırmaq;

Helicobacter pylori-li qastritdə ( Hp-qastrit) H. pylori-nin eradikasiya terapiyası:

birinci sıra:

standart üçlü terapiya:

***Proton pompa inhibitorları (PPİ ) (Omeprazol (Omeprazole), Lansoprazol (Lansoprazole), Rabeprazol (Rabeprazole)*** və s.) standart dozada gündə 2 dəfə,

***Klaritromisin (Clarithromycin),*** 500 mq gündə 2 dəfə,

***Amoksisillin (Amoxicillin),*** 1000 mq gündə 2 dəfə, yeməkdən 30 dəqiqə əvvəl – 7,10 və ya 14 gün;

və ya ***PPI***-nin ikiqat dozası ilə eyni sxem üzrə:

***Omeprazol (Omeprazole)*** və ya ***Esomeprazol (Esomeprazole)*** - gündə 2 dəfə 40 mq, 7 gün

penisilin antibiotiklərinə qarşı rezistentlik varsa, ***Amoksisillin*** əvəzinə ***Metronidazol (Metronidazole)*** 500 mq, gündə 2 dəfə yemək zamanı, istifadə edilməlidir ;

ardıcıl terapiya:

***PPI*** standart dozada gündə 2 dəfə ***Amoksisillin*** ilə birlikdə gündə 2 dəfə 1000 mq - 5 və ya 7 gün, sonra

***PPI*** standart dozada gündə 2 dəfə ***Klaritromisin*** ilə birlikdə gündə 2 dəfə 500 mq - 5 və ya 7 gün, sonra

***PPI*** standart dozada gündə 2 dəfə ***Tinidazol (Tinidazole)*** və ya ***Metronidazol*** ilə birlikdə gündə 2 dəfə 500 mq - 5 və ya 7 gün;

2-ci sıra terapiya:

bismut preparatları ilə dördlü sxem (kvadroterapiya):

***PPI*** standart dozada gündə 2 dəfə,

***Bismut trikalium disitrat (Bismuth tripotassium dicitratobismuthate),*** gündə 4 dəfə 120 mq yeməkdən 20-30 dəqiqə əvvəl,

***Tetrasiklin (Tetracycline)*** 500 mq, yeməkdən əvvəl gündə 4 dəfə,

***Metronidazol*** 500 mq, yemək zamanı gündə 3 dəfə - 7 , 10 və ya 14 gün;

3-cü sıra terapiya (levofloksasinlə üçlü terapiya):

***PPI*** standart dozada gündə 2 dəfə,

***Levofloksasin (Levofloxacin)*** 500 mq gündə 2 dəfə,

***Amoksisillin*** 1000 mq gündə 2 dəfə - 10 gün;

qastritin xüsusi formalarında - etioloji faktora təsir (Seliakiya xəstəliyi, Kron xəstəliyi, Veqener qranulomatozu və s. müalicəsi);

B12 vitamini defisiti ilə (150 pq/ml-dən aşağı) meqaloblastik anemiya ilə müşayiət olunan autoimmün atrofik qastrit zamanı:

***Vitamin B12 (Cyanocobalamin)*** 500 mkq/günə əzələdaxili, hemoglobin normallaşana qədər, sonra eyni dozada həftədə bir dəfə 2 ay müddətində; uzunmüddətli (ömür boyu) 500 mkq 2-3 ayda bir dəfə;

***Fol turşusu (Folic acid)*** 5 mq/günə.

## Ədəbiyyat

**Клинический протокол «Диагностика и лечение пациентов с заболеваниями органов пищеварения» (утвержден постановлением Министерства здравоохранения Республики Беларусь от 01.06.2017 № 54)**

https://minzdrav.gov.by/upload/dadvfiles/CProtokol/%D0%9A%D0%9F%20%D0%94%D0%B8%D0%B0%D0%B3%D0%BD%D0%BE%D1%81%D1%82%D0%B8%D0%BA%D0%B0%20%D0%B8%20%D0%BB%D0%B5%D1%87%D0%B5%D0%BD%D0%B8%D0%B5%20%D0%BF%D0%B0%D1%86%D0%B8%D0%B5%D0%BD%D1%82%D0%BE%D0%B2%20%D1%81%20%D0%B7%D0%B0%D0%B1%D0%BE%D0%BB%D0%B5%D0%B2%D0%B0%D0%BD%D0%B8%D1%8F%D0%BC%D0%B8%20%D0%BE%D1%80%D0%B3%D0%B0%D0%BD%D0%BE%D0%B2%20%D0%BF%D0%B8%D1%89%D0%B5%D0%B2%D0%B0%D1%80%D0%B5%D0%BD%D0%B8%D1%8F%2001.06.2017%20%E2%84%96%2054.pdf